ADIF

ƏMANƏTLƏRIN SIĞORTALANMASI FONDU

DEPOSIT INSURANCE FUND

**Ünvan: AZ1001, Bakı şəhəri, Həsən Abdullayev küçəsi 11 Tel: (+994 12) 437 30 34; 437 30 35; 437 30 36;**
**Faks: (+994 12) 437 30 38 e-mail: adif@adif.az www.adif.az**

№ 39

«01 » aprel 2008 –ci il

**Bütün İştirakçı bankların**

**İdarə Heyəti sədrlərinə**

İştirakçı bankların sorğularını nəzərə alaraq bildiririk:

Bir əmanətçinin həm qorunan və həm də qorunmayan əmanəti ola bilər. Məsələn, tutaq ki, bir əmanətçinin 100 000 AZN əmanəti var. Bunun 50 000 AZN-i əmanətçinin iştirakçı banka olan borcu (kredit, bənd 4.9), 10 000 AZN-i təminatı (bənd 4.10), qalan 40 000 AZN isə qorunan əmanətidir. Bir əmanətçinin həm qorunan və həm də qorunmayan əmanətləri olduğu üçün bir əmanətçi üç yerdə əmanətçi kimi qeyd olunur. Bu halda, Hissə1. bənd 5. və Hissə 4. 17-ci bənddə göstərilən əmanətçilərin sayı bərabər olmaya bilər.

**Hissə 4.**–Sığorta hadisəsi baş verdikdə, hər bir qorunan əmanətçiyə ödəniləcək kompensasiyanın məbləğini təyin etmək üçün doldurulur. Məsələn, 1 qorunan əmanətçinin bankda 5 qorunan əmanət hesabı var: 300 AZN; 500 AZN; 400 ABŞ dolları; 600 ABŞ dolları; 500 Avro. Manat hesabında olan əmanətlər cəmlənir (300+500=800 AZN), ABŞ dolları (400+600=1000 ABŞ dolları) və Avro (500 avro) hesablarında olan əmanətlər hesabat dövrünün son gününə (31mart) Milli Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi çarpaz məzənnələr (1ABŞ dolları = 0,8319 AZN; 1Avro = 1,3144 AZN) üzrə AZN ekvivalenti hesablanır (1000 ABŞ dolları*0,8319 = 831,9 AZN; 500 avro*1,3144 AZN = 657,2 AZN). Beləliklə bu əmanətçinin əmanətinin məbləği 2289 AZN-dir (800+831,9+657,2=2289,1 AZN).

Hesabat doldurularkən bu əmanətçi Hissə 4. bənd 12.-də (1001 - 4000 manat məbləğində olan qorunan əmanətlərin cəmi) qeyd olunur.

- Hissə 4. bənd 11.-də cəmi əmanətlərin məbləğini əmanətçilərin sayına böldükdə alınan məbləğ 1000 AZN-dən çox olmamalıdır.
- Hissə 4. bənd 12.-də cəmi əmanətlərin məbləğini əmanətçilərin sayına böldükdə alınan məbləğ 1001 AZN-dən az, 4000 AZN-dən çox olmamalıdır.
- Hissə 4. bənd 13.-də cəmi əmanətlərin məbləğini əmanətçilərin sayına böldükdə alınan məbləğ 4001 AZN-dən az , 6000 AZN-dən çox olmamalıdır.
- Hissə 4. bənd 14.-də cəmi əmanətlərin məbləğini əmanətçilərin sayına böldükdə alınan məbləğ 6001 AZN-dən az, 8000 AZN-dən çox olmamalıdır.
- Hissə 4. bənd 15.-də cəmi əmanətlərin məbləğini əmanətçilərin sayına böldükdə alınan məbləğ 8001 AZN-dən az 25000 AZN-dən çox olmamalıdır.
- Hissə 4. bənd 16.-da cəmi əmanətlərin məbləğini əmanətçilərin sayına böldükdə alınan məbləğ 25001 AZN-dən az olmamalıdır.

Əlavə olaraq bildiririk ki, Hissə 4. bənd 17.-də Milli valyutada olan əmanətlərin məbləği və sayı Hissə 2. bənd 6.1. ilə bərabər olmalıdır. Həmçinin Hissə 4. bənd 17.-də Xarici valyutada olan əmanətlərin məbləği və sayı Hissə 2.-də 6.2., 6.3., və 6.4.a. (və ya 6.4.b) bəndlərinin cəmi ilə bərabər olmalıdır.

Əmanətlərin Sığortalanması Fondu iştirakçı banklardan xahiş edir ki, hesabatların hazırlanmasında yuxarıda göstərilənləri təmin etsinlər.

**Hörmətlə,**

**İcraçı direktor** **Azad Cavadov**